

# YOL

**Azərbaycan Avropanın qərbindəki əksər ölkələrdən fərqli olaraq, maraqların kəskin kəsişdiyi mürəkkəb coğrafiyada yerləşdiyindən burada hakimiyyət oradakı kimi, sadəcə ali menecerlik deyil. O səbəbdən də biz dərindən nəzər yetirəndə aydın görürük ki, cənab İlham Əliyevin 20 il Prezidentliyi hakimiyyətdə olmaqdan daha çox, eramızdan əvvəlki proseslərdən bəhs edən bir rəvayətdəki sayaq, xalqını da yanına alıb, yırtıcı dövlətlərlə vuruşa-vuruşa, çarpışa-çarpışa yol getməyə bənzəyir. Amma bu, sözügedən rəvayətdə nəql edildiyi kimi, yurddan gediş yox, yurduna dönüş yoludur və sentyabrın 20-də Azərbaycanın çağdaş sərhədləri çərçivəsində öz torpaqları üzərində suverenliyini tam təmin etməsi ilə birinci mərhələsi başa çatdı.**

Ancaq açıq deyək ki, bu mərhələnin 3 mühüm olayı - 44 günlük savaşla işğala son qoyulması, Laçında sərhəd-buraxılış məntəqəsi qurulmaqla ərazi bütövlüyümüzün təmini və Xankəndidəki hərbi xuntanın çökdürülməsi ilə torpaqlarımız üzərində suverenliyimizin tam təmini, əslində mahiyyətcə qlobal geosiyasi inqilab idi. Çünki bu 3 olay, əksər böyük güclərin, ilk növbədə də keçmiş Minsk qrupu həmsədrlərinin maraqlarına qətiyyən cavab vermirdi və bunu heç gizlətmirdilər də.

Demək, Bismarkın siyasət haqqında azacıq dəyişdirilərək təqdim edilən məşhur fikri elə də düzgün deyilmiş. Bu nəhəng alman dövlət xadimi siyasəti "mümkün olanı reallaşdırmaq" sənəti adlandırırdı. İlham Heydər oğlunun 20 illik fəaliyyətindən isə görürük ki, əsl siyasətçi nəinki mümkün olanı, mümkünlüyü əfsanə təsiri bağışlayanları da reallaşdırmağı bacarır. Və burada söhbət təkcə yuxarıda qeyd etdiyimiz kimi, torpaqlarımız üzərində suverenliyimizin tam təminindən getmir. Regiondakı iki böyük dövlətin əleyhinə çıxdıqları Bakı-Ceyhan kəmərinin çəkilməsi, qərbdəkilərin haradasa 20 il cəhd etsələr də, reallaşdıra bilmədikləri NABUCCO layihəsinə alternativ olaraq "Cənub qaz dəhlizi"nin işə salınması özü də əfsanə təsiri bağışlayan məsələlərin həlli deyildimi?

20 il öncə cənab İlham Əliyev bir Prezident kimi özünün ilk andını içəndə mənim diqqətimi ən çox çəkən iki cümlə vardı. Birincisində o, nə yolla olur-olsun torpaqlarımızın işğaldan azad ediləcəyini, ikincidə isə Heydər Əliyev siyasətinə həmişə sadiq qalacağını bildirirdi. Elə də oldu və orasını da deyək ki, əslində birinci vədin yerinə yetirilməsi məhz ikinciyə dəqiq əməl edilməsinin nəticəsi idi. Ümumiyyətlə, Prezidentimizin 20 ildəki fəaliyyətini bir sözlə qiymətləndirməli olsaq, o sözün adı sədaqətdir. Liderinə sədaqət, onun yoluna sədaqət, milləti qarşısında verdiyi vədə sədaqət! Cənab İlham Əliyevin uğurlarının kökündə ilk növbədə məhz bu sədaqət faktoru durur.

Onun Azərbaycan xalqı qarşısındakı xidmətlərinə toxunularkən bizdə bəzən tarixdə böyük uğurlar qazanmış, imperiyalar yaratmış sərkərdələrimiz xatırladılır. Amma gəlin unutmayaq ki, onların uğurlarında bu coğrafiyada bir-biri ilə yola getməyən iki güclü türk dövlətinin varlığında maraqlı olanların da rolu az deyildi. Qərbdəki bəlli çevrələr Çinin Çingiz xana yanaşmada yeritdiyi siyasətdən örnək götürərək onlara dəstək verirdilər. Səlibçi düşüncəsi ilə hərəkət edən həmin çevrələr son yüz ildəki davranışları ilə göstərdilər ki, onlar bu regionda qətiyyən güclü Azərbaycan görmək istəmirlər. Fransanın, eləcə də ona yandaşlıq edənlərin torpaqlarımızı işğalçılardan təmizləməmizlə barışmaq istəməmələrinin kökündə duran da elə budur.

Xatırlayırsınız deyilmi, Ukrayna savaşından sonra Rusiyanın atdığı bütün addımların əleyhinə çıxan, dediklərinin hər birinin əksini sübut etməyə çalışan qərbdəkilər Azərbaycan aprelin 23-də Laçında sərhəd-buraxılış məntəqəsi quranda Moskva ilə necə oxşar mövqe sərgilədilər?

Belə bir reallıq ortadaykən, cənab İlham Əliyevin bizi qələbədən-qələbəyə aparmasının sirri, məncə, onun dünyada barmaqla sayılacaq qədər az yüksəkinformasiyalı liderlərdən biri olması, ən əsası həmin informasiyadan müdrikcəsinə və qətiyyətlə faydalanması ilə əlaqədardır.

2018, 2020-ci illərdə Prezident və parlament seçkilərinin vaxtlarının irəli çəkilməsindən, eləcə də 44 günlük savaşdan az sonra nələr baş verdiyini yada salsaq, Azərbaycanın dövlət başçısının "Nəyi necə, nə vaxt etmək lazımdır - bunu mən bilirəm" sözlərini niyə dediyi tam anlaşılır.

Yeri gəlmişkən, bu gün Yaxın Şərqdə yaşananlar bir daha təsdiqləyir ki, Qarabağdakı son antiterror tədbirləri də vaxtında atılmış bir addımdır. Bu da heç şübhəsiz ki, Prezidentimizin yüksək informasiyalılığından və həmin informasiyalara dayanaraq çevik, düzgün qərar qəbul etmək bacarığından xəbər verir.

Bəli, Azərbaycanın bu günlərə gəlib çatmasının arxasında məhz bu cür qərarlar zənciri durur. Ancaq o da unudulmamalıdır ki, cənab İlham Əliyev bu 20 ildə təkcə dövlətini əksər parametrlər baxımından regionun liderinə çevirmədi, eyni zamanda öz xalqını da Qafqazda hamıdan ucalara qaldırdı. BMT Təhlükəsizlik Şurasının üzvü seçilən, Qoşulmama Hərakatının sədri olaraq onun fəaliyyətində əsaslı dönüş etməyi bacaran, kosmik dövlətlər sırasında yer alan Azərbaycana olduğu kimi, azərbaycanlılara da yanaşmanı dəyişdirdi.

Digər xalqlar, ilk növbədə də Qafqazdakılar heç vaxt bizə indi yanaşdıqları kimi yanaşmayıblar. İndi azərbaycanlı deyəndə göz önünə ləyaqətli, qürurlu, strateji səbri, yaddaşı və baxışı olan, yad diqtəsinə boyun əyməyən bir xalq gəlir. Açığını deyək ki, Gülüstan anlaşmasından üzübəri biz özümüz də heç vaxt indiki qədər azərbaycanlı olmağımızla qürur duymamışıq. Bax, bütün bunlar o deməkdir ki, Azərbaycan bir dövlət olaraq yeni zirvələr fəth edəcək, daha da güclənəcək və böyüyəcək.

Bilirsiniz, dövlətin böyüklüyünün sonu haçan çatır? Onun yumşaq güc potensialı tükənəndə. Ki, bunun da ən önəmli göstəricilərindən biri, həmin dövləti formalaşdıran xalqa digərlərinin nifrətinin durmadan artmasıdır. Məsələn, Fransa hazırda öz tarixinin məhz bu mərhələsini yaşayır.

Fransadan söz düşmüşkən, son 3 ildə biz bu "böyük bacı"nın öz "kiçik bacı"sından da betər kiçildiyini və kiçildildiyini də seyr etdik. Bu il sentyabrın 21 - də Azərbaycana qarşı sanksiya məqsədi ilə BMT Təhlükəsizlik Şurasını toplayan Fransanın başında duran adamın aradan yarım ay keçməmiş Qranadada özünü bunun əleyinə çıxırmış kimi göstərməsi "Qarabağ Ermənistandır",- deyib də ardından dəfələrlə əksini bildirən Paşinyanın hərəkətlərindən çoxmu fərqlənir?

Beləliklə, son 20 ildə Azərbaycanın böyüməsi ilə yanaşı, biz azərbaycanlıların indiyədək böyük sandıqlarımızın kiçildiklərini də görməmək mümkün deyil. Və qarşıda hələ çox görəcəklərimiz var. Yazının əvvəlində qeyd etdiyim kimi, bizim Liderimiz, cənab İlham Əliyev 20 ildir Böyük Yoldadır. Fəqət misal gətirdiyimiz rəvayətdən də bilinir ki, məqsədə tam çatılması üçün 40 il lazım gəlir. Ümumiyyətlə, 40 ədədi bütün mədəniyyətlərdə, təsəvvüfdə də tamlıq, elə həm də bütövlük rəmzidir. Hətta musiqidə də hər bir takt 40 zərbədən ibarətdir.

Ona görə də Böyük Yolda olan Böyüyümüzün hələ görəcəyi çox məsələlər, göstərdiyi və göstərəcəyi Hədəflərə çatmaqlar var. Hələ göstərmədiyi hədəf yəqin daha böyük və bizim üçün daha müqəddəsdir, göstərdiyi isə Qərbi Azərbaycana dönüşdür.

Biz hər birimiz cənab Prezidentin 2022-ci ilin 24 dekabrında, öz doğum günündə Qərbi Azərbaycan İcması ilə görüşdə dedikləri bu sözləri yaxşı xatırlayırıq: "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar".

Əgər bir Lider 2011- ci ildə yenə də doğum günündə Taxtakörpüdə Laçından olan məcburi köçkünlərlə görüşdə onlar üçün salınan yeni qəsəbənin müvəqqəti olduğunu, torpaqlarımızın azad ediləcəyini, yurdlarına dönəcəklərini, "Laçında, Kəlbəcərdə, Ağdamda, hələ ki, işğal altındakı digər torpaqlarda bundan da gözəl evlər tikiləcəyini" deyirsə, həmin evlər artıq tikilirsə, laçınlıları bu il mayın 28 - də özü orada qarşıladısa, sözü imzası olanımızın bizi bu hədəfə də çatdıracağına necə inanmaya bilərik?

Sadəcə, bu 40 illik Yolun başlanğıc nöqtəsi kimi, bilmirəm 2003-cü il götürülməlidir, yoxsa Ulu Öndərin yenidən Azərbaycana rəhbərlik etməyə başladığı 1993-cü il? İstənilən halda, Yol eyni, məqsəd eyni, qətiyyət eyni, bacarıq eyni, soy və soyad eynidir. Ona görə də qarşıda bizi ancaq uğur gözləyir. Həm də ona görə uğur gözləyir ki, biz Fransa və digərləri kimi dənizaşırı torpaqlar peşində deyilik, Müzəffər Ali Baş Komandanımızın əsgərləri, Yol yoldaşları olaraq izimizlə özümüzə doğru gedirik.

**Sahib ALIYEV,**
***Milli Məclisin deputatı***